

*Ələsgər Talıboğlu*

## Təkcə sənin olaram

Aysel dedi:-Ay nənə,
Qurban olum mən sənə.
Nolar sən get bazara.
çoxlu rəngli kitablar,
dəftər,qələm al mənə.
Həm oxuyum,həm yazım,
Sən,gör,necə ağıllı,
Qoçaqdır sənin qızın.
-Yaxşı,quzum ,alaram.
-Nənə,nənə,ay nənə,
Qurban olum mən sənə.
Məmmədə də algınan
çoxlu rəngli qələmlər,
həm də şəkil dəftəri.
Qoy,çəkməyə alışsın,
onun toppuş əlləri.
-Yaxşı,yaxşı,ay quzum,
sabah gedib, alaram.
Aysel sevincdən həmən
başladı öz oynuna.
Bərk-bərk qucaqlayıb o,
qollarını doladı
nənəsinin boynuna.
-Bax,o zaman,ay nənə,
mən səninlə qalaram.
Sənə layiq qız olub,
təkcə sənin olaram.

## Günayın sevdiyi quş

Günaygilin həyəti
həm bağlı, həm bağçalı.
Əlvan-əlvan gülləri
düymə-düymə qönçəli.

Günay isə daha çox
sevir bağda quşları.
Sərçəni, göyərçini,
bir də qaranquşları.

Onun ən çox sevdiyi
göyərçindir, goyərçin.
Heç özü də bilməyir
axı nədən, nə üçün?..

## Şirindil qız

Nərmin necə gözəldir,
Necə də şirin qızdır.
Onu görən sanır ki,
Sanki aydır, ulduzdur.

Min oyundan çıxır o,
Hərdən bizə gələndə.
Hər sözündən bal dadır,
Danışanda, güləndə.

Boydan çox balacadır,
Təzə keçibdir üçə.
Elə hay-küy qoparır,
Az qalır ki, ev köçə.

Bircə an da durmayır,
Ötür o elə dil-dil.
Artıq hər kəs çağırır:
Nərmin deyil, Şirindil.

## Oyanar Ulduz

Kiçik bacımın
Ulduzdur adı,
Öpdüm üzündən
Üzü bal dadı.

Onunla hər gün
oynayıram mən
evdə, eşikdə,
o isə yatıb
taxta beşikdə.
İstəyirəm ki,
Oyadam onu,
Anamsa elə
Görəntək bunu
Astadan deyir:
-Toxunma, ay qız,
Təzəcə yatıb,
Oyanar Ulduz.

## Mışıl-mışıl uyuyur

Bu balaca Xədicə
Uyuyur mışıl-mışıl,
Saçları salxım-salxım,
Gözləri işıl-işıl.

Babası keşiyində
Durub bir əsgər kimi,
Bu balaca beşiyi
Qoruyur səngər kimi.

Əlində ağac əsa,
Başında qara papaq.
Dodağında təbəssüm,
Saçı-saqqalı düm ağ.

Nəvə şirin yuxuda,
Baba oyaqdı yenə.
Bu evin sükutunu
Pozmaq yasaqdır yenə.

Ulduz qonur, ay qonur
Pəncərəyə hər gecə.
Mışıl-mışıl uyuyur
Bu balaca Xədicə.

## Qarçiçəyi

-Ay nənə, bu çiçəyin
nədən axı deyirlər
Qarçiçəyi adına?
Bu soyuqda, sazaqda
belə zərif gözəlin
kim yetişər dadına? ...
Nədən axı boy verir
qar altından çox erkən?
Əllərim üşüyəcək
mən onu ax ... dərirkən ...
-Sənə necə anladım,
başa salım, ay qızım.
Bu Tanrının işidir,
artıq söhbət nə lazım ...
Odur bu yer üzünü
qar altından boylanıb
salamlayan birinci,
çiçəklərin içində
bir incidir, bir inci.
Ona görə sən andan
nə qədər var dərginən,
özünə əlvan-əlvan
böyük çələng hörgünən.

## Bizim balaca Bağır

Necə də mehribandır
Bizim balaca Bağır.
Atdığı hər addımdan
Bir dünya sevinc yağır.

Ağlamaqla işi yox,
Eləcə hey güləcək.
Qabağına kim çıxsa,
Onu doğma biləcək.

Balağından yapışıb
Ona qucaq asacaq.
Qucağa cıxan kimi
Öpüb bərk-bərk qucacaq.

Beləcə oxşayacaq,
Sevəcək o hər kəsi.
Hamıya can verəcək
Onun isti nəfəsi.

## Öyrənəcəm

-Ana,sabah məni də
oyadarsan erkəndən.
-Mənim igid, nər balam,
de,görüm axı nədən?
-Bütün yayı atamla
gedəcəm birgə işə.
Mən ondan öyrənəcəm
özümə gözəl peşə.